# “Erməni plagiatına məruz qalmış Qərbi Azərbaycan yallıları”

## Kitab rus və ingilis dillərində də nəşr edilib

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) elmi-tədqiqat laboratoriyasının aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Rauf Bəhmənlinin “Erməni plagiatına məruz qalmış Qərbi Azərbaycan yallıları” adlı kitabının təqdimatı keçirilib.



Tədbirdə BMA-nın elm və yaradıcılıq işləri üzrə prorektoru professor Gülnaz Abdullazadə milli musiqi irsimizin qorunmasından və Qərbi Azərbaycan yallılarının bu irsdə yerindən söz açıb.

Elmi tədqiqat laboratoriyasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Nuridə İsmayılzadə Rauf Bəhmənlinin uzun illər apardığı tədqiqatlar əsasında əldə etdiyi 500-dən çox rəqs melodiyalarının əhəmiyyətini, onların öyrənilməsi və notlaşdırılması sahəsində alimin yorulmaz zəhmətini xüsusi qeyd edib.

Rauf Bəhmənli 2022-ci ildə Azərbaycan dilində çapdan çıxan kitabın Qərbi Azərbaycan İcmasının dəstəyi ilə rus və ingilis dillərinə tərcümə olunaraq yenidən nəşr edildiyini diqqətə çatdırıb. Müəllif kitabda Qərbi Azərbaycana aid 43 yallının notlaşdırıldığını bildirib, bu yallıların artıq yaddaşlardan silinməkdə olan üçünün (“Ağbulaq”, “Çəmənkənd” və qədim adı “Babacan” olan “Teymur ağa” yallıları) videoyazısını təqdim edib. O, yallıların yaranma tarixindən, onların ermənilər tərəfindən necə mənimsənildiyindən nümunələr gətirərək, bu saxtakarlıqları ifşa edən faktlarla bağlı auditoriyanı məlumatlandırıb.

Digər çıxış edənlər Qərbi Azərbaycanın musiqi mədəni irsinin əhəmiyyətindən söz açıb, təqdim olunan kitabın mədəniyyətimizin araşdırılması, tətbiqi və təbliği baxımından əhəmiyyətini vurğulayıblar.

Mədəniyyət 2023.- 24 noyabr, № 87.- S.4.